# Ağdamda Heydər Əliyevin doğum gününə həsr olunmuş tədbir keçirilib





**Ağdamda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr olunmuş təntənəli yığıncaq keçirilmişdir.**

Tədbirdə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov, Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Mansur Quliyev, şəhid ailələri və qazilər, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, ziyalılar, ictimaiyyət və media nümayəndələri iştirak etmişlər. İştirakçılar öncə Heydər Əliyevin mərkəzi meydanda ucaldılmış abidəsi önünə tər gül dəstələri düzərək ruhuna ehtiramlarını ifadə etmişlər. Ağdam Muğam Mərkəzində davam edən tədbirdə Dövlət himni səsləndirilmiş, Ulu Öndərin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.




Tədbirdə çıxış edən RİH-in başçısı Vaqif Həsənov, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov və digər natiqlər müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş Heydər Əliyevin hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi şəxsiyyət olmasından, Azərbaycana və regiona sülh, sabitlik və davamlı inkişaf gətirmək yolunda atdığı qətiyyətli addımların onun beynəlxalq səviyyədə siyasi və ictimai xadim kimi birmənalı şəkildə qəbul edilməsini şərtləndirən həlledici amillər olmasından, bu gün Ümummilli Liderin ideyalarının Prezident İlham Əliyevin gərgin əməyi və fəaliyyəti sayəsində uğurla inkişaf etməsindən bəhs etmişlər.

Tədbirin bədii hissəsində Bakı Kamera Orkestrinin müşayiəti ilə respublikanın Xalq artistləri Nəzakət Teymurova, Aygün Bayramova, Əməkdar artistlər Firuz Səxavət, Səbuhi İbayevin ifasında musiqi nömrələri təqdim olunmuşdur.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 9 may. № 95.- S.14.